AZER-ÇEX Cəmiyyəti
Praqa, Çexiya Respublikası
www.diaspora.cz

7.7.2004

Prof. Elmira Suleymanova
Ombudsman
Üzeyir Hacıbəyov küç. 40,
AZ1000, Bakı–Azərbaycan

---

Hörmətli Elmira xanım Süleymanova,

3.7.2004 taixində Praqadakı görüşümüz Cəmiyyətimizin fəaliyyətindəki ən mühüm və əhəmiyyətli hadisələrdən biridir. Azərbaycanımızın yüksək intelektə malik və humanist dəyərləri özündə birləşdirən belə bir Ombudsmanının olması bizləri sevindirir.
Haqqında söhbət açdığımız və xaricdə yaşayan soydaşlarımızı maraqlandıran məsələlərdən biri də şəxsiyyət vəsiqələri və başqa vətəndaşlıq sənədləri ilə bağlı olan problemlərdir. Belə ki, Vətənimizin hüdudlarından kənarda yaşayan vətəndaşlarımız bu sənədləri əldə etmək və ya vaxtını uzatmaq imkanından məhrumdurlar. Buna əsas səbəb, Azərbaycanın xarici ölkələrdəki səfirliklərinin belə bir səlahiyyətə malik olmamasıdır. Bildiyimiz kimi bu məsələlərlə bir-başa AR DİN məşqul olur. Bununla da, yaşadığı ölkədən asılı olmayaraq, daimi olaraq xaricdə yaşayan vətəndaşlarımızın demək olar ki hamısı bu problemlərlə üzləşirlər.

Azərbaycan Respublikası İnsan Haqları Müvəkkilindən rica edirik ki, yaranmış vəziyyəti səlahiyyətli orqanlarla müzakirə edəsiz.

Sizlərə şəxsi həyatınızda və şərəfli işinizdə uğurlar diləyirik.

Xoş arzularla

Dr. Elşən S. Nəzərov
Cəmiyyətin Sədri